**UOT 7**
**https://doi.org/10.59849/2218-4783.2024.2.274**

**TURAL ADIŞİRİNOV**

# VÜSAL OĞUZUN HEKAYƏLƏRİNDƏ MİLLİLİK

*Məqalədə şimal-qərb bölgəsinin yazılı ədəbiyyatının istedadlı təmsilçilərindən biri Vüsal Oğuzun nəsr yaradıcılığı tədqiqat müstəvisinə gətirilir. Tədqiqatçı Vüsal Oğuzun hekayələrində milli ənənələrimizi, mənəvi dəyərlərimizin müxtəlif aspektlərdə əks olunmasını araşdırır. Araşdırmaların nəticəsi göstərir ki, Vüsal Oğuz Azərbaycan nəsrini yeni bədii düşüncə arxetipində zənginləşdirən, hekayələrində milli düşüncəyə, milli ənənələrə sadiq qalan yazıçılardandır. Yazıçının nəsr materiyasının özəyində vətənpərvərlik stixiyası ("Alman hesabı ilə çəkmə"), şəhid ağrıları ("Sonuncu sovqat", "Çağırılmamış şaxta baba"), zamanın maddi və mənəvi deqradasiyaları ("Nisyə", "Ana muğamatı" "Kredit", "Əyalət şairinin bir günü") ana xətdir. Vüsal Oğuzun bütün hekayələrində yazıçı intellekti həyati məsələlərə yeni təfəkkür prizmasında baxmaqla milli yaddaşı hərəkətə gətirən nəsnə kimi çıxış edir. Yazıçının hekayələrində xəlqi elementlər, xalq düşüncəsindən gələn keyfiyyətlər yaddaş hadisəsi kimi determinator xarakter daşıyır.*

**Açar sözlər:** *Vüsal Oğuz, yazılı ədəbiyyat, hekayə, şimal-qərb bölgəsi, milli-mənəvi dəyərlər, millilik.*

**Giriş.** Müasir Azərbaycan nəsrinin istedadlı qələm sahiblərindən biri də Vüsal Oğuzdur. O, Azərbaycanın qədim türk yurdlarından olan Oğuz rayonunun Xaçmaz kəndində –doğulub boya-başa çatdığı kəndə yaşayıb-yaradır. O, Oğuz ədəbi mühitinin sayılıb-seçilən qələm adamlarındandır.

Vüsal Oğuz həmçinin Azərbaycan Yazıçılar Birliyinin Oğuz bölməsinin sədridir. O, çoxşaxəli yaradıcılıq ampulası ilə seçilən imzalardandır. Vüsal Oğuz maraqlı təhkiyə üslubuna malik, fikrin sistemli və obrazlı ifadəsinə önəm verən yazıçıdır. O, həyat həqiqətlərini, real dünyamızın problemlərini hekayələrində uğurla əks etdirir, oxucusunu düşündürən hekayələr yazır.

**Əsas məzmun.** Ədəbiyyat həyatı məhz canlı obrazlar vasitəsilə inikas etdirir. Buna görə də insanın mənəvi aləmi həmişə onun diqqət mərkəzində durmuş, müasirlərinin mənəviyyatını daha dərindən, realist planda, ictimai-psixoloji cəhətdən əsaslı əks etdirən sənətkarlar uzun ömürlü əsərlər yarada bilmişlər.[2. s. 141]

Vüsal Oğuzun hekayələrində də cəmiyyətin obrazı, zamanın adi və qeyri-adi qəhrəmanları, insanların sosial, psixoloji durumu əks etdirilir, hər bir hekayəsi maraqlı quruluşu, dil-ifadə səlisliyi, ideya məzmunu ilə seçilir. Yazıçı hekayələrində hadisələrə ritorik münasibət göstərir, ciddi mətləblərə – milli-mənəvi köklərə bağlanan məsələlərə vətəndaş mövqeyindən yanaşır. Mövzu müxtəlifliyi, təhkiyə şirinliyi, humanizm onun hekayələrini oxunaqlı edən əsas şərtlərdəndir.

Aydındır ki, Azərbaycan xalqının formalaşmasında, dövlətçiliyimizin qorunub saxlanılmasında və möhkəmləndirilməsində milli-mənəvi dəyərlərimizin, milli ənənələrimizin xüsusi rolu vardır. Sağlam cəmiyyətin inkişafında mənəvi dəyərlərin önəmi böyükdür. Ədalətli olmaq, vətənpərvərlik, xeyirxahlıq, ailəyə bağlılıq, düzlük, ata-anaya hörmət, heyvanlara qayğı, qonaqsevərlik mənəvi dəyərlərimiz, milli ənənə atributlarımızdır.

Milli-mənəvi dəyərlərin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi yazılı ədəbiyyatın da əsas vəzifələrindən biridir. Bu baxımdan milli ənənələri yaşadan, milli-mənəvi

dəyərlərə söykənən əsərlərin yazılması hər bir yazıçının üzərinə düşən vacib məqamlardandır.

Vüsal Oğuz milli-mənəvi dəyərlərə hörmətlə yanaşan, milli ruha bağlı yazıçıdır. Hekayələrində məhz milli ənənəyə, milli ruha sadiqliyini nümayiş etdirir. Xalq məişəti, adətənənələr, qaynar məişət qayğıları və s. Vüsal Oğuz prozasının alt qatlarıdır. Mətn konstruksiyasında sadaladıqlarımız yazıçının təsvir və təqdimi, canlı həyat hadisələrinin ifadəsi üçün vasitə rolunu oynayır. Yazıçının hekayələrində milli kolorit, xalqın mənəvi dəyərləri müxtəlif rakurslarda oxucuya təqdim olunur.

Yazıçının bu və ya başqa mövzunu seçməsi üçün, onun bu mövzuya qarşı ictimai marağı olmalıdır. Yazıçı elə bir mövzu seçir ki, bu onun həyat məsələsi olsun, onun nəzərində ictimai bir əhəmiyyət qazansın. Yəni, o başa düşsün ki, bu mövzu onun xalqı, dövrü, sinfi üçün qiymətli və lazımdır [3, s. 51].

Bu baxımdan Vüsal Oğuzun bütün hekayələrində xəlqi elementlər, xalq düşüncəsindən gələn keyfiyyətlər yaddaş hadisəsi kimi determinator xarakter daşıyır. Vüsal Oğuzun nəsr təfəkkürü milli-mənəvi dəyərlərdən qidalandığı üçün hekayələrində yaratdığı obraz və ştrixlər canlı və təsirlidir. *"Bir dəfə Xınalıqda"* [1, s. 14] *"Çağırılmamış şaxta baba"* [1, s. 5], *"Ovçu və qartal"* [1, s. 29], *"Dostluq"* hekayələrində xalqımıza məxsus ən ümdə milli dəyərlərdən olan yaxşılıq, xeyirxahlıq, dostluq hissləri oxuculara aşılanır.

*"Çağırlmamış şaxta baba"* hekayəsi yazıçının milli düşüncə hadisəsi kimi yaranmışdır. Hekayədə müharibə ağrılarının doğurduğu dəhşətlər, insan faciələri yazıya gətirilir. Hekayədə psixoloji gərginlik içərisində qurulan təhkiyə üslubu polifonik düşüncə hadisəsi kimi birmənalı olaraq müharibə ağrılarını açmış olur. Hekayədəki milli realiləri əks etdirən epik təqdimat formaları xəlqi və bəşəridir.

Hekayənin baş qəhrəmanı olan Şaxta babanın həyatı məhrumiyyətlər, acınacaqlı insan taleyi üzərində qurulub. O, uşaq evində böyüyüb boya-başa çatıb, 18 yaşı tamam olanda orduya çağırılıb, ön xətdə xidmət edib. Taleyin acı tərəfi bir gün ona tuş gəlib, o düşmən snayperinin gülləsindən ağır yaralanaraq ordudan tərxis olunur. Sol gözünü itirir, ağır maddi çətinliklər içərisində qalır. Dostları ona yeni il bayramlarında şaxta baba olmaq təklifini edir. Dostu Kamilin təklifi ilə o yeni il gecəsi evlərə sifarişlə Şaxta baba kimi getməyə başlayır. Hekayədəki dərin psixoloji vəziyyətlər, ağır insan taleləri oxucunun şüur altına təsir edir.

Hekayədəki milli realilər mətndə müxtəlif formullarda özünü göstərir. Mətndəki bir neçə flaqmanlara nəzər yetirək: 1. Mətndə Şaxta baba təsadüf nəticəsində aprel şəhidinin evində qonaq olur. Evin mənzərəsi ürək dağlayıcıdı: 7 ay qabaq zabit ərini itirən dul qadın, ata yolu gözləyən kimsəsiz yetim uşaq, yoxsulluq içərisində yaşayan bir ailə. Mətndəki bütün təsvirlər, hadisələrin təqdimi, yaradıcı düşüncə yazıçı ustalığının göstəricisidir. Şaxta baba hər bir azərbaycanlıya məxsus xarakter kimi ailəyə əliboş gəlmir, ailənin ehtiyacı olan bazarlıqla, uşağa lazım olan hədiyyələrlə ailənin qapısını döyür. Hekayədəki əxlaqi örnək dekadaları oxucuda rəğbət yaradan, milli şüuru oyadan faktorlardan biridir.

Ümumiyyətlə, Vüsal Oğuzun bütün hekayələrində yazıçı intellekti həyati məsələlərə yeni təfəkkür prizmasında baxmaqla milli yaddaşı hərəkətə gətirən nəsnə kimi çıxış edir. Yazıçının nəsr materiyasının özəyində vətənpərvərlik stixiyası (*"Alman hesabı ilə çəkmə"* [1, s. 38]), şəhid ağrıları (*"Sonuncu sovqat"* [1, s. 41], *"Çağırılmamış şaxta baba"* [1, s. 5]), zamanın maddi və mənəvi deqradasiyaları (*"Nisyə"* [1, s. 55], *"Ana muğamatı"* [1, s. 71], *"Kredit"* [1, s. 83], *"Əyalət şairinin bir günü"* [1, s. 90]) ana xətdir. Hekayələrdə makro və mikromühitlər sistemindəki kodekslər (ailə ənənələrinin çöküşü, maddi problemlər, aldatma

və s.) milli dəyərlər müstəvisində başəriliklə, insan problemi ilə gücləndirilir.

Vüsal Oğuzun nəsr təhkiyəsinin spesifik xüsusiyyətlərindən biri də mətn informasiyalarının müxtəlifliyidir. Yazıçı mətndaxili gəzişmələr edərək müxtəlif mental yaddaş elementlərini vahid kontekstdə birləşdirir. Onun mətnlərinin məzmun qatını dünyanı, mühiti, sosial sferanı əks etdirən mexanizmlər, kodekslər təşkil edir.

Yazıçının bədii təhkiyəsinin əsasında dayanan nəsnələr – xüsusən də milli kimliyə xidmət edən, milli düşüncənin arxitektonikasını təşkil edən vətənpərvərlik stixiyası, şəhid ağrıları və s. *("Alman hesabı ilə çəkmə", "Sonuncu sovqat")* yaddaş elementləri millilik konsepsiyasına dayanır. Məhz buna görə Vüsal Oğuz hekayələrində bu konsepsiyaya yüksək ustalıqla yanaşır.

*"Sonuncu sovqat"* hekayəsində əks olunan şəhid motivi, vətənpərvərlik etalonu ən üst səviyyədə oxucu nəzərini cəlb edir. Mətndə "Dörd qız övladından sonra dünyaya gələn, evin son beşiyi olan oğlunu vətən yolunda qurban verən ana və atanın iç fəryadı, ağrısı diqqət çəkir. Hekayədəki son detal – "şəhid oğlunun məzarına ananın sonuncu sovqat payı olan şəkərburanı gətirməsi" oxucu dünyasını alt-üst edir, bir ananın və atanın oğul dərdindən mənəvi çöküşü ən təsirli boyalarla əks olunur.

*"Alman hesabı ilə çəkmə"* hekayəsində təsvir olunan nəsnə də olduqca ağrılıdır. Hekayənin adını biz *"İki qaziyə bir cüt çəkmə"* deyə adlandırsaq da ritm pozulmaz. Çünki onlar ayaqqabı almağa belə gedəndə bir cüt ayaqqabı alaraq hərəsi bir tayını geyinərdi. Mətndə biri sol, o biri sağ ayağını itirən iki cəbhə dostunun taleləri əks olunur. Onlar zarafatlaşarkən bəzən bir-birinə verdikləri "Görəsən, ayaqlarımız indi hardadır?" sualı hekayədə təsvir olunan ən təsirli məqamdır. Hekayədə müharibənin insan həyatında yaratdığı faciələr və s. məqamlar yazıçı tərəfindən mətnə ustalıqla gətirilir.

Yazıçı insanların adi gözlə görə bilmədiyi xarakterləri, münasibətləri, ictimai hadisələri aydınlaşdırır. Amma bunları o, ideologiyanın başqa formalarından – tarix, psixologiya və fəlsəfə elmindən fərqli şəkildə, bədii surətlər vasitəsilə canlandırır [4, s. 28].

Vüsal Oğuzun hekayələrində daha bir xarakterik cəhət həyat həqiqətlərinin, insanın maddi və mənəvi aləminin deqradasiyasının mətnə uğurla gətirilməsidir. *"Kredit"* hekayəsi psixoloji gərginliklər, insanın mənəvi aləminin son dərəcə peşəkarlıqla ifadə olunmuş nümunəsidir. Bu hekayədə yazıçı tipik şəraitdə tipik xarakter yarada bilmək bacarığı ilə seçilir. Mətn konstruksiyasında hadisələr dramatik fonda verilir, zaman qarşısında insanın mənəvi aləminin çöküşü, aldanışı təsvir edilir. Mətndə psixoloji gərginliyin təqdimi anlamında, aldadan və aldanan obrazların timsalında bir epizoda diqqət yetirək: "Baləlinin danışığından başa düşdü ki, dostu onun evini, torpağını girov qoyub, kredit götürmək istəyir. Təbii ki, hər ay özü ödəyəcək. Ürəyində "kişinin başına iş gələr. Adam gör neçə dəfə mənə yaxşılıq edib, qardaş olmuşuq, çörək kəsmişik. İndi mən Baləliyə yox desəm, göydə Allah, yerdə də qonşular qınayar məni. Qəsəbədə olan hörmətimi itirərəm", – deyə düşündü. "Mən hazır" deməsi ilə Baləlinin gözlərinə işıq gəldi". O hələ bilmirdi ki, dostu Baləliyə etdiyi bu "mənəvi borc" ona sonralar baha başa gələcəkdi. Baləli onun evini, torpağını girov qoymaqla onu dərin quyuya sallayıb kəndirini kəsmişdi. Hekayədə yazıçının təhkiyə istedadını, hadisələrə ardıcıl və sistemli yanaşmasını görürük. Sərt həyat həqiqətlərinin mətnə ustalıqla gətirilməsi, mətndəki ideya-estetik düşüncənin oxucu altşüuruna təsir formulları yazıçının nəsr ustalığının bariz göstəricisidir.

**Nəticə.** Vüsal Oğuzun hekayələri təkcə mətn hadisəsi kimi dəyər qazanmır, onun gücü

milli düşüncəyə, milli kimliyə bağlılığı ilə daha çox seçilir. Vüsal Oğuz nəsri milli yaddaş hadisəsi kimi, millilik konsepsiyasına əsaslanmaqla, müasir Azərbaycan prozasını yeni bədii düşüncə arxetipində zənginləşdirən yaradıcılıq nümunəsidir.

## ƏDƏBİYYAT

1. Oğuz V. Sonuncu sovqat: Hekayələr. Bakı: Xan nəşriyyatı, 2018, 96 s.
2. Seyidov Y. Axtarış yollarında. Bakı: Yazıçı. 1983, s. 209.
3. Seyidov M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: APİ nəşriyyatı, 1958, s. 86.
4. Əlibəyli Q. Bədiilik haqqında: Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Azərnəşr, 1964, s. 132.

***AMEA-nın Şəki Regional Elmi Mərkəzi***
***E-mail: tural.adisirinov@mail.ru***

**Tural Adishirinov**

## NATIONALITY IN THE STORIES OF VUSAL OGUZ

The article raises the prose works of Vusal Oguz, one of the talented representatives of written literature of the northwestern region, to the level of research. In the stories of Vusal Oguz, the researcher examines the reflection of our national traditions and moral values in various aspects. The results of the study show that Vusal Oguz is one of the writers who enriched Azerbaijani prose with a new archetype of artistic thought and remained faithful to national thought and national traditions in his stories. The writer’s prose is based on an element of patriotism (“By German Reckoning”), the pain of martyrdom (“The Last Gift”, “Uninvited Santa Claus”), the material and spiritual degradation of the era (“Installment Plan”, “Mother’s Mughams”, “Credit”, “One Day of a Provincial Poet”). In all the stories of Vusal Oguz, the writer’s intellect acts as a subject that activates national memory, allowing us to take a new look at vital issues. In the writer’s stories, folk elements, qualities of folk thought, have a defining character as an event of memory.

**Keywords:** *Vusal Oguz, written literature, story, northwestern region, national and moral values, nationality.*

**Турал Адыширинов**

## НАЦИОНАЛЬНОСТЬ В РАССКАЗАХ ВУСАЛА ОГУЗА

В статье на уровень исследования выведено прозаическое творчество Вусала Огуза, одного из талантливых представителей письменной литературы северо-западного региона. В рассказах Вусала Огуза исследователь рассматривает отражение наших национальных традиций и нравственных ценностей в различных аспектах. Результаты исследования показывают, что Вусал Огуз является одним из писателей, обогативших азербайджанскую прозу новым архетипом художественной мысли и оставшийся в своих рассказах верными национальной мысли и национальным традициям. В основе прозы

писателя лежит элемент патриотизма («По немецкому счету»), боль мученичества («Последний дар», «Незваный Дед Мороз»), материальная и духовная деградация эпохи («Рассрочка», «Материнские мугамы», «Кредит», «Один день провинциального поэта»). Во всех рассказах Вусала Огуза интеллект писателя выступает субъектом, активизирующим национальную память, позволяющим по-новому взглянуть на жизненно важные вопросы. В рассказах писателя народные элементы, качества народной мысли имеют определяющий характер как событие памяти.

**Ключевые слова:** *Вусал Огуз, письменная литература, рассказ, северо-западный регион, национально-нравственные ценности, национальность.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 08.04.2024**
**Son variant 17.05.2024**